Ədəbiyyat QƏZETİ
№314 23 yanvar 2026-cı il



# Qərib MEHDİ

Görkəmli yazıçı-dramaturq, Əməkdar jurnalist Qərib Mehdi haqq dünyasına qovuşdu.

Qərib Qasım oğlu Mehdiyev 21 iyul 1936-cı ildə Qəbələ (keçmiş Qutqaşen) rayonunun Mirzəbəyli kəndində anadan olmuşdu. Kiçik yaşında ailəliklə Gəncə şəhərinə köçmüş, burada orta təhsilini tamamladıqdan sonra Gəncə şəhər rabitə idarəsində poçtalyon, C.Cabbarlı adına Gəncə Dövlət Dram Teatrında aktyor (1957-1959) və müxtəlif peşələrdə çalışmışdır.

Sonrakı illərdə H.B.Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunda təhsil almış, Gəncə şəhər məktəblərində müəllim işləmişdir (1965-1971).

1971-ci ildən ömrünün sonuna kimi Gəncə Dövlət Pedaqoji Universitetinin çoxtirajlı "Yüksəliş" qəzetinin redaktoru vəzifəsində çalışmış, Gəncə şəhəri Alimlər Evi nəzdində fəaliyyət göstərən "İlham" ədəbi birliyinə rəhbərlik etmişdir.

Yaradıcılığa 1958-ci ildə "Ədəbiyyat və incəsənət" qəzetində dərc etdirdiyi "İşığın qəzəbi" hekayəsi ilə başlayan Qərib Mehdinin sonrakı illərdə "İşıq" (1967), "Yaralı mərmər" (1969), "Ucalan dağlar" (1971), "Rast" (1973), "Təmiz hava" (1980), "Səndən sonra" (1985), "Çinar günü", "Müsabiqə", "Qəhqəhə", "Gül əvəzinə söz", "Skripka üçün mi simi", "Nizami Aydın şəhidliyi", ümumilikdə, 85 kitabı çap olunub. Əsərləri dünyanın bir çox dillərinə tərcümə edilib. O, 1968-ci ildən Azərbaycan Yazıçılar Birliyinin, 1976-cı ildən Jurnalistlər Birliyinin üzvü idi.

Görkəmli yazıçı, Əməkdar jurnalist (2009) Qərib Mehdi "Həsən bəy Zərdabi" və "Məmməd Araz" ali ədəbi mükafatları laureatı idi.

Qərib Mehdi bədii yaradıcılıqla məşğul olmaqla yanaşı Gəncə ədəbi mühitinin formalaşmasına böyük əmək sərf etmişdir. Bu gün Azərbaycan ədəbi camisində imzaları yetərincə tanınan çox sayda yazıçı və şairlər məhz Qərib müəllimin yetirmələridir. O, öz yetirmələrinin sənət yolunu açmaq fədaisiydi. Yaxşılıq, xeyirxahlıq və fədakarlıq onun başlıca həyat missiyasıydı.

Görkəmli yazıçı, əsl ədəbiyyat fədaisi, gözəl ailə başçısı, səmimi insan Qərib Mehdinin əziz xatirəsi onu tanıyanların qəlbində əbədi yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**